# İnsanlığın zirvəsi

Qartallar zirvəyə qonar, zirvələr isə yalnız güclülülərə xas olar. O zirvələr ki, məkana yalnız çətinliklərə sinə gərə-gərə, dözüm və cəsarət nümayiş etdirərək yetişəsən. Həm də hazırki texnikanın gücü ilə yox, öz ağlının gücü və dırnaqlarını torpağa, daşa, çınqıla bərk batıraraq.

Məhz Polad kimi! Adına layiq, yurduna layiq, xalqına layiq.

Ata yurdu, ana ocağı gözəlliklər məskəni Qəbələ, onun təhsilli kadrları ilə məşhur olan Vəndam kəndi (qəsəbə) idi. Bu kəndin havası və suyu onun damarlarında axan qanında idi. Ana südüylə, ata nəfəsiylə hopmuşdu ona–ağıl da, cəsarət də...



Sənaye şəhəri olan Sumqayıtda 1975-ci ilin yanvar ayının 2-də doğulmuşdu. Orta təhsilini Sumqayıt şəhərində əvvəlcə 28, sonra isə 34 saylı məktəbdə almışdır. Ata yurdu Qəbələnin Vəndam qəsəbəsi öz əsrarəngiz gözəlliyi ilə həmişə özünə cəlb edirdi onu. Yay və qış tətillərini Vəndamda keçirər, dağlar qoynunda özünə bir ocaq yeri–ev tikmək, övladlarını bu gözəl məskənlə daha sıx "bağlamaq" könlündən keçərdi...

### MƏNƏ BİR VƏTƏN GÖSTƏR

Hüquqşunas omaq istəyirdi, elə bir hüquqçu ki, haqsızlıqların haqq üzərində zəfərinə imkan verməsin, vicdanının oyanıqlığı, insanların haqq-ədaləti hər addımda duymasını, bütün qanunlarda insanlığın fenomen olmasını hiss etdirəcək bir hüquqşunas olmaq istəyirdi. Ancaq tarix müəlliminin "indiki dövrdə kişilər yalnız hərbçi olarlar" deməsi onu peşə seçimində əsl kişi sənəti seçməyə sövq etdi və məktəbli Polad üçün Habil müəllimin dedikləri kişilik məktəbinə çağırış oldu.

**Mənə bir cənnət göstər,**
**Çiçəkləri tər olsun.**
**Mənə bir vətən göstər,**
**Oğulları nər olsun.**

Bir nər övlad kimi həyat yolu yaşadı. Polad orta məktəbi bitirdikdən sonra 1992-ci ildə Heydər Əliyev adına Ali Hərbi məktəbə daxil oldu. Bu dörd ildə hər an düşmən tapdağında olan torpaqlarımız uğrunda döyüşmək arzusu, "qələbə" qazanmaq, qaçqın, məcburi köçkün kəlamlarını gündəlik həyatımızdan silmək, hər kəsin öz doğulduğu, boya-başa çatdığı obalarda, ata yurdlarında yenidən məskunlaşması hər an onu düşündürür və buna görə də hərbçi sənətini daha mükəmməl öyrənirdi.

Azərbaycanın zəngin tarixi keçmişini, sərkərdələr və xalq qəhramanlarının həyat, döyüş salnaməsini maraqla araşdırar, ən ümdəsi "insanlıq" məktəbinin "məzunu" olmağı düşünərdi.

Ali Hərbi məktəbi bitirdikdən sonra Ağdam bölgəsində gedən döyüşlərdə iştirak etdi və onun hərbi xidməti belə başladı... 2002-ci ildə Türkiyədə təhsilini davam etdirdi.

### TARİXƏ İZ SALAN ÖMÜR

Polad hərbi geyimi hələ uşaq yaşlarında geyinərdi... Anası Səməyə xanım söylərdi ki, uşaq vaxtından ən çox sevdiyi oyun da "dava-dava" oyunu, oyuncaq isə "hərbi silahlar" olardı. Hətta "hər kəs ən çox sevdiyi oyuncaqla şəkil çəkdirəcək" deyəndə o, öz avtomatını sinəsinə sıx tutaraq şəkil çəkdirmişdi... İllər sonra bu silah onun üçün daima özü ilə daşıdığı ən müqəddəs, ən qiymətli əşya oldu... Ən gözəl adı isə özünün özünə verdiyi "Vətənin əsgəri" titulu idi.



Azərbaycanımızın sərhədləri ətrafında, düşmənin işğal etdiyi torpaqlarımızla sərhəd bölgələrinin bir müsəlləh əsgəri, nər övladı idi. Polad.

Göygöl rayonunda, Tovuz, Qusar, Daşkəsən, Bərdə, Şəmkir və s. bölgələrdə yaşayan və atəşkəsi pozulan hər istiqamətdə Polad Həşimov olardı. Hansı bölgədə olur-olsun öz döyüş yoldaşlarının daima arxasında dayanar, döyüşlərdə əsgərlərə sipər olardı.

Polad Həşimov 2015-ci ilə Hərbi Akademiyanın məzunu olmuşdu.

### OĞUL TOYU SEVİNCİ

İsrayıl Həşimov və Səməyə xanım hər ikisi Qəbələnin Vəndam qəsəbəsinin sakinləri idi. İsrayıl Həşimov Sumqayıt şəhərində alüminium zavodunda fəhlə işləyirdi. Səməyə xanımla ailə qurduqdan sonra da onlar Sumqayıtda yaşadılar və həmin zavodda birgə işlədilər. Zavodda işləyə-işləyə ev aldılar və 4 övlad sahibi oldular: 2 oğul, 2 qız. Övladları ali təhsil aldılar. Polad ailənin 3-cüsü idi. Onun təhsil alıb işə başlaması ailəni hədsiz sevindirmişdi... Hərbi geyimdə ona baxdıqca ailə həmişə qürur hissi keçirir, ürəkləri dağa dönürdü. Poladın "polad əzmi" təkcə ailənin deyil, ata yurdunun sakinləri-ni, qohum-əqrabanı, oxuduğu boya-başa çatdığı Sumqayıtda da onu tanıyanlar onun saf düşüncələri, əqidəsi, insanlığa xas ülvi hissləri gördükcə onunla fəxr edir, ona rəğbət və hörmətlə yanaşırdılar. Səməyə xanım isə gecə-gündüz oğlunu bədxahlardan, bədnəzərlərdən qorusun deyə dua edirdi. Ən böyük arzusu isə oğluna yaraşan gəlini olması idi... İstəmirdi ki, oğlu döyüş bölgələrində tənha yaşasın. Poladı anlayan, onun bu müqəddəs, ancaq məsuliyyətli peşəsini, işini qiymətləndirəcək bir həyat yoldaşı seçməsini çox istərdi...

Vəndam qəsəbəsinin ziyalı ailəsinin və ananın istəklərinin cəmləşdiyi bir qızla ailə qurdu Poladımız. 2003-cü ildə ana oğul toyu etdi... Və oğul da öz ömür-gün yoldaşı ilə birgə hərbçi həyatına davam etdi... Ana ürəyi qismən sakitləşdi, axı oğlu tək deyildi, gəlini Ofelya xanım da hərbiçi kimi onunla birgə döyüş bölgələrində yaşayırdı...

### İNANCLIQ

Hərbçi bir insanın ömür-gün yoldaşı olmaq şərəfli olduğu qədər də çətindir.



Hər anı həyacanlıdır. Övladları, ailəsi üzünə həsrət qalır, ələlxüsus da Polad Həşimov kimi ömrünü öz işinə, əsgər yoldaşlarına həsr edən, əsl insan ömrü yaşayan, vicdanını ömür yoluna yaşıl işıq seçən bir kəslə yaşarkən.

Əsgər hərbi xidmətdə olarkən ailəsindən narahat olmamalıdır. Döyüşçü döyüş bölgəsində ailəsindən narahat olmadıqda daha şücaətlə döyüşür. Ofelya müəllimə də məhz belə hərbiçi xanımı idi...

Polad xanımının sədaqətinə də, analıq hisslərinə də inanırdı. Və bilirdi ki, övladları yaşadıqları ilə bərabər analarından da düzgün tərbiyə alırlar...

Elə bu inam onun hərbi xidmətinə stimul verirdi.

### HƏRBİ XİDMƏT

Polad Həşimov 2003-cü ildə mayor qismində Prezident Heydər Əliyevin Sərəncamı ilə "Hərbi xidmətinə görə" medalı ilə təltif edilmişdir.

6 il sonra, 2009-cu ildə isə o, artıq polkovnik-leytenant rütbəsində Prezident İlham Əliyevin Sərəncamı ilə "Vətən uğrunda" medalı ilə təltif olunur.

2014-cü ildə, iyunun 25-də III dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilən Polad Həşimov 2016-cı ildə Aprel döyüşlərində göstərdiyi qəhramanlığa görə II dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə mükafatlandırılır. O, 2016-cı ilin aprel ayında cəbhə boyu baş verən döyüşlər zamanı Talış qəsəbəsi uğrunda gedən döyüşləri aparan 1-ci Ordu Korpusunun Qərargah rəisi olmuşdur.

2019-cu ilin iyun ayının 25-də Polad Həşimova general-mayor ali hərbi rütbəsi verilir. O, Azərbaycan Silahlı Qüvvələrinin 3-cü Ordu Korpusunun Qərargah rəisi təyin olunur.

### OĞLUN GENERALDIR, ANA!

Atası sadə peşə adamı idi, halal zəhmətlə böyütmüşdü övladlarını. Əliaçıq, ürəyitəmiz, zəhmətkeş insan idi. Səməyə xanım ona: "Övladlarımıza ehtiyat yığaq, onlara bir gün ağlayaq"–deyəndə İsrayıl kişi demişdi ki, yaxşı övladın ata malına ehtiyacı yoxdur, pis övlada da mal-mülk yığmağına dəyməz. Oğlunun uğur qazanacağına inanırdı atası. Polad Həşimovun mayor rütbəsi ilə "Hərbi xidmətlərə görə" medalı ilə təltif olunmasının sevincini yaşayan İsrayıl kişiyə oğlunun Fəxri adlarını, rütbələrini görmək əfsuslar olsun ki, qismət olmadı. 2005-ci ildə dünyasını dəyişən ata oğlu ilə həmişə fəxr edərdi...

Polad Həşimov 2019-cu ildə general-mayor hərbi rütbəsini aldıqdan sonra hərbi formasını ona həm ata, həm də ana kimi xeyirdua verən Səməyə xanımın yanına gətirdi və bu sevinci, bu fəxarəti ona yaşatdı:

–Oğlun generaldır, ana–dedi.

### GENERALLAR ÖLÜMSÜZDÜR

İsmayıl bəy Qutqaşınlıdan sonra Qəbələnin igid generalı oldu Polad! Tarixdə generallar az-az yetişər. Böyük Vətən Müharibəsinin Qəhrəmanı, general Həzi Aslanov kimi Polad Həşimov da əsgəri ilə döyüşən və bu adı döyüş bölgələrindəki əsgəri şücaətləri ilə qazanan oğul idi.

1988-ci ildən başlayan Qarabağ döyüşlərinin isə üçüncü generalı idi: İsmət Qayıbov, Məhəmməd Əsədovdan sonra.

General mayor 2020-ci il iyulun 14-də Tovuz istiqamətində baş verən şiddətli döyüşlər zamanı Ermənistan Silahlı Qüvvələrinin hücum cəhdinin qarşısını alarkən həlak olur...

Generallar ölümsüzdür deyə düşünərdim həmişə. Çünki generalları hərbi hissənin kompası sanardım. Generallar yenilməzdir sanıram həmişə. Ancaq Polad Həşimov təkcə general deyildi. Ən başlıcası vətənin, müsəlləh əsgəri idi, döyüşçü idi. Əsgərlərinə valideyn idi, qardaş idi, müəllim idi. Qohum toylarından əsgərlərinə toy yeməyi, əsgərlərə lazım olan əşyaları alan, ayağının əsgər ayaqqabısını əsgərin ayağına geyindirən, öz əməkhaqqısı və zəhməti hesabına döyüş səngərləri quran, traktor və maşınları əsgərləriylə birgə təmin edən, bir sözlə, bütün ömrünü hərbi xidmətinə, öz işinə həsr edən bir insan idi. Döyüş bölgələrində öz döyüşçüləri ilə birgə silaha sarılan bir general-əsgər idi. Döyüş şücaətinə görə ona verilən evi şəhid ailəsinə bağışlayan bir vətənpərvər oğul idi!

Halbuki illər uzunu kirayə qalır, ata-anasının Sumqayıtda fəhlə işləyib aldıqları evdə anası, bacıları və qardaşı ilə birgə yaşayacaq ata evləri vardı. Qəlbinin arzusu ilə doğma ata-ana yurdu olan Vəndamda-dağlar qoynunda tikdirdiyi sadə evində bir gün belə yaşaya bilmədi: Nəşi əvvəlcə bu həyətə gətirildi...

Şəhid olduğu bölgədən ta Qəbələyə, Vəndama qədər bütün xalq onu bayraqlarla, gənclər döyüş və qələbə, Vətən şuarlarıyla qarşıladılar. Yaşamadığı evi ilə vidalaşdı...

Sonra boya-başa çatdığı Sumqayıt şəhərinə gətirildi, ata evi ilə vidalaşdı.

***Mənə bir Günəş göstər,***
***Şəfəqləri zər olsun.***
***Mənə bir atəş göstər,***
***Övladı başər olsun.***

Övladı-bəşər oldu Poladımız. İyulun 15-də general-mayor Polad Həşimov II Fəxri Xiyabanda onunla birlikdə şəhid olan İlqar Mirzəyevlə yanaşı dəfn olundu. Vida mərasimində müdafiə naziri Zakir Həsənov, müavini Ramiz Tahirov, Baş Qərargah rəisi Nəcməddin Sadığov, Prezident Administrasiyasının Hərbi məsələlər şöbəsinin müdir müavini Yaşar Əliyev və başqaları şəhidlərin ailələri və yaxın qohumları iştirak etmişlər. Polad Həşimov gənclərin, döyüşçülərin and rəmzidir. Onun Vətənimizin azadlığı, torpaqlarımızın işğaldan təmizlənməsi və bütövlüyü uğrunda mübarizəsi məhz polad iradəli Poladsevər döyüşçülərimiz və gənclərimiz tərəfindən davam etdiriləcək.

Generalımız haqqında onun əziz xatirəsinə Qarabağ həqiqətlərindən bəhs edən bədii film çəkiləcək. "Komandir" adlı filmin ssenarisi artıq hazırdır.

Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının 4-cü kurs tələbəsi Təbriz Soltanlı generalın büstünü hazırlamışdır. "Qanun" nəşriyyatı tərəfindən general-mayor haqqında kitab nəşr olunmuşdur.

Redaksiyamıza çoxlu sayda xatirələr əks olunmuş məktublar, şeirlər gəlir.

Onun haqqında neçə-neçə kitablar yazılacaq, mahnılar bəstələnəcək. Məktəbli övladları,özü kimi polad iradəli anası, həyat yoldaşı, bacıları, qardaşı onu daim, zamanın hər anında yuxu kimi duyacaq, onun səsi qulaqlardan, əksi gözləri önündən çəkilməyəcək. Onunla nəfəs alacaq kimi yaşayacaqlar. Onu tanıyanlar, döyüş yoldaşları, övladı kimi sevdiyi əsgərləri də onu qəlblərində, arzularında yaşadacaqlar. Polad polad əzmi ilə xalqın övladı, Milli Qəhrəmanı, generalıdır.

Generallar isə ölümsüzdür!

**BİBİXANIM,**
**"Qəbələ"**